

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 98 (23.009)

25 may 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 24-də Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsinin şimal-şərqində Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olublar.

Sonra dövlətimizin başçısı və birinci xanım 222 yerlik "Şirin Bala" uşaq bağçasında yaradılan şəraitlə də tanış olublar.

Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 24 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlar da vardır.

**Abdinov Rövşən Möhsün oğlu**
**Rəhimov Seyfəddin Rəhman oğlu**
**Fərzəliyev Hüseyn Həbib oğlu**

"Tərəqqi" medalı ilə,

**Kərimov Əlövsət Həşim oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsinin əsasında "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxs yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini təsdiq etsin;

2.2. Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsinin istifadəsində olan əmlak və avadanlıqların bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin balansına verilməsini təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı zəruri tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 may 2018-ci il*

## "Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Diaqnostika-Müalicə Mərkəzinə publik hüquqi şəxs statusu verilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini təsdiq etsin.

3. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi və Vergilər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Bu Sərəncam 2018-ci il iyunun 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 may 2018-ci il*

## "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalı iştirakçılarının əsərlərindən ibarət sərgi açılmışdır





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli Sərəncamına əsasən ümummilli liderimizin anadan olmasının 95-ci ildönümü muxtar respublikada silsilə tədbirlərlə qeyd olunur. Tədbirlər Planına uyğun olaraq 21-24 may tarixlərində Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalı keçirilmişdir.

Mayın 24-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda çəkilmiş əsərlərdən ibarət sərgi açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərginin açılışında iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək demişdir ki, mayın 21-dən keçirilən "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalının iştirakçıları muxtar respublikanın tarixi və təbiət abidələrinə, görməli yerlərinə ekskursiyalar etmişlər. Mayın 23-də isə Naxçıvan şəhərinin Əcəmi seyrəngahında festivalın açılışı olmuş, dünyanın müxtəlif ölkələrindən gələn rəssamlar Naxçıvana həsr olunmuş əsərlər çəkmişlər. Bu gün isə həmin əsərlərdən ibarət sərginin açılışı keçirilir.

Türkiyəli rəssam Birsən Çakər çıxış edərək demişdir: Naxçıvanda beynəlxalq rəsm festivalının yüksək səviyyədə keçirilməsi və yaradılan şərait bütün rəssamlar tərəfindən sənətə və sənət adamlarına göstərilən qayğı kimi dəyərləndirilir. Festivalın ilk günü bu qədər əsərin çəkiləcəyini təsəvvür etmirdik. Lakin Naxçıvanın tarixi abidələri, təbiəti və müasir inkişafı ilə tanışlıq, buradakı qonaqpərvərlik hər bir rəssamı daha səylə işləməyə ruhlandırdı. Qısa müddətdə festival iştirakçıları tərəfindən Naxçıvanla bağlı əsərlərin çəkilməsi və sərginin açılması bunu bir daha təsdiq edir. Naxçıvanda rəssamlar üçün yaradılan şəraiti bundan sonrakı fəaliyyətimizdə daim təbliğ edəcəyik. Birsən Çakər yaradılan şəraitin və göstərilən diqqətin təqdirəlayiq olduğunu bildirmiş, bütün festival iştirakçıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Festivalın yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdıran ukraynalı rəssam Yevgeniy Smirnov müəllifi olduğu "Dağlarda qəsəbə" rəsm əsərini Ali Məclisin Sədrinə hədiyyə etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalında iştirak etdiklərinə görə rəssamlara təşəkkürünü bildirərək demişdir: Hər bir ölkənin, hər bir xalqın tarixində və həyatında onun şəxsiyyətləri vardır. Ümummilli liderimiz Heydər Əliyev də Azərbaycan xalqının tarixində və həyatında mühüm xidmətləri olan böyük şəxsiyyətdir. Hər il muxtar respublikada ulu öndərin doğum günü şərəfinə müxtəlif tədbirlər keçirilir. Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə təsdiq olunmuş Tədbirlər Planına əsasən keçirilən "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalı da belə tədbirlərdəndir.

Ali Məclisin Sədri demişdir: "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalının keçirilməsi əlamətdar hadisədir. Ona görə ki, festival Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illiyinə həsr olunub. Elə insanlar var ki, onların həyatları bir xalqın taleyinə və bir ölkənin tarixinə çevrilir. Ulu öndər Heydər Əliyevin həyatı da Azərbaycan xalqının taleyi və Azərbaycan dövlətinin tarixidir. Bu tarixi yaşatmaq, onu gələcək nəsillərə çatdırmaq üçün hər il müxtəlif tədbirlər keçirilir. Heydər Əliyev yolu, Heydər Əliyev şəxsiyyəti gənc nəslə öyrədilir, muxtar respublikamızda keçirilən tədbirlərdə iştirak edən insanlara, rəssamlara və digər sahələrin əməkdaşlarına çatdırılır. Müxtəlif ölkələrin rəssamlarının Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ümummilli liderimizin 95 illiyinə həsr olunmuş beynəlxalq rəsm festivalında birləşərək bir məram və məqsəd naminə əsərlər yaratması festivalın əhəmiyyətini daha da artırdı. Festivalda iştirak edən rəssamlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik tədbirlərinə öz töhfələrini verdilər.

Ardı 2-ci səhifədə






Ali Məclisin Sədri “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının iştirakçılarının ölkələrinə xoş hisslərlə qayıdacaqlarına əminliyini bildirmiş, festivalın uğurla başa çatması münasibətilə təbriklərini çatdırmış və təşkilatçılara təşəkkür etmişdir.

Sonra sərgiyə baxış olmuşdur.

Bildirilmişdir ki, festivalda Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Ukrayna, Rusiya, Finlandiya, Sloveniya, Misir, Oman və Polşadan olmaqla 35 rəssam, ölkəmizdən və onun Naxçıvan Muxtar Respublikasından isə 28 rəssam iştirak etmişdir. Sərgi salonunda rəssamların festivalda çəkdikləri 65 rəsm əsəri nümayiş olunur.

Ukraynalı rəssam Yevgeniy Smirnovun “Ağaclar çiçək açır”, iranlı rəssam Səid Əyyaminin “Qarabağ”, türkiyəli rəssamlardan Basri Ərdəmin “Araz sahili” və Hülya Sezginin “Güllər içində Naxçıvan”, rusiyalı rəssam Diana Arslanovanın “Xəyal dünyası”, polşalı rəssam Katya Sokolova Zizakın “Haçadağ”, qazaxıstanlı rəssam Olqa Erenin “Naxçıvanım”, finlandiyalı rəssam Deyzi Strausanın “Qarabağ atı”, sloveniyalı rəssam Nik Anikisin “Haçadağın tarixi”, azərbaycanlı gənc rəssam Bəhruz Kəngərlinin “Naxçıvan əfsanəsi”, Eldar Zeynalovun “Naxçıvan rəsm festivalı”, Cavid İsmayılovun “Şərqin qəməri”, Telman Abdinovun “Tarixi qoruyaq” və digər əsərlər rəssamların zəngin təxəyyülündən və peşəkarlığından xəbər verirdi.

Sloveniyalı rəssam Polona Loborek, qazaxıstanlı rəssam Olqa Eren və digərləri Naxçıvanla tanışlıqdan məmnunluqlarını bildirmiş, bundan sonrakı festivallarda da iştirak edəcəklərini qeyd etmişlər. Sloveniyalı rəssam Nik Anikis isə öz əsərində Naxçıvanın Nuh tufanı ilə bağlılığını göstərmək istədiyini qeyd etmiş, sənətə verilən qiymətin, rəssamlar üçün yaradılan şəraitin qədim tarixə və zəngin mədəniyyətə malik olan Naxçıvanın daha bir ucalığı kimi dəyərləndirmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Qürur doğuran yüksəliş

## *Naxçıvan sürətli inkişaf yolundadır*

***Minilliklərə söykənən tarixə və dövlətçilik ənənələrinə, zəngin mədəni dəyərlərə malik olan Azərbaycan keşməkeşli və şərəfli inkişaf yolu keçib. Bu yolda Azərbaycanın dövlətçilik tarixinə layiqli töhfələr vermiş hər bir yurdumuz kimi, Naxçıvanın da öz yeri var. Bu qədim Azərbaycan diyarı ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynayıb.***

### *14-cü səfər*

Ötən əsrin 90-cı illərinin əvvəllərində ağır günlərini yaşayan, blokada şəraitində olan Naxçıvan məhz Heydər Əliyevin sayəsində bütün təhlükələrdən xilas oldu, düşmən qarşısında mətanətlə dayandı. Vaxtilə ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlişi həm də Azərbaycanın müstəqil dövlətçiliyinin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Çünki ilk dəfə olaraq məhz ulu öndərin qətiyyəti və prinsipiallığı sayəsində müstəqil respublikamızın üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi, 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmiləşdirilməsi, Yeni Azərbaycan Partiyasının yaradılması bu qədim diyarın müstəqilliyimizə və dövlətçiliyimizə layiqli töhfəsidir.

Ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində isə Naxçıvan davamlı inkişaf və əmin-amanlıq yolu ilə inamla addımladı. Muxtar respublikanın inkişafının 2003-cü ildən sonrakı dövrü isə ulu öndər Heydər Əliyevin quruculuq xəttinin yaradıcı gücünün əyani ifadəsidir. Bu dövrdə Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da dinamik inkişaf yolu keçib. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası paytaxt Naxçıvan şəhəri ilə yanaşı, rayonların və ucqar dağ kəndlərinin də inkişafına səbəb olub. Ölkə rəhbərinin diqqət və qayğısının nəticəsidir ki, son 10 ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 10 dəfə artıb.

Bu günlərdə Prezident İlham Əliyevin Naxçıvana səfəri respublikamızın bu bölgəsinin yüksəlişinin dinamik, davamlı və nümunəvi olmasından xəbər verdi. Qeyd edək ki, bu, Prezident İlham Əliyevin dövlət başçısı kimi Naxçıvana sayca 14-cü səfəri idi. İlk səfər isə 14 il əvvəl, 2004-cü ilin may ayında olmuşdu. Bu müddətdə Prezidentin hər səfəri Naxçıvanın yüksəlişindən xəbər verməklə yanaşı, həm də həmin bölgənin inkişafında yeni mərhələnin əsasını qoyub.

### *Aparılan işlər yüksək qiymətə layiqdir*

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində öz qədimliyini və tarixiliyini qorumaqla bu gün də sürətlə inkişaf edən Naxçıvan Muxtar Respublikasında əsaslı dəyişikliklər baş verib, sənaye məhsulunun həcmi 34,4, əsas kapitala yönəldilmiş investisiyalar 15,9, o cümlədən tikinti-quraşdırma işləri 15,2 dəfə artıb. Yaradılan yüzlərlə istehsal müəssisəsində 72 mindən çox yeni iş yeri açılıb.

Naxçıvan şəhərinin özündə və rayon mərkəzlərində, demək olar ki, bütün kəndlərdə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müasir avadanlıqla təchiz edilmiş idman kompleksləri, təhsil və səhiyyə müəssisələri, mədəniyyət və turizm obyektləri inşa edilib. Xüsusən muxtar respublikanın bütün kəndlərində yeni məktəblər, xəstəxanalar, idman qurğuları və inzibati binalar inşa olunub. Hər yerdə istirahət bağları və parklar salınıb. Naxçıvanda irimiqyaslı digər infrastruktur layihələri də yerinə yetirilib. Belə ki, Naxçıvan Muxtar Respublikasında artıq on ildən çoxdur ki, qazlaşdırma 100 faiz təmin edilib. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra muxtar respublika öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək.

Naxçıvanın yol infrastrukturu da son illər həm inkişaf edib, həm də genişlənib. Naxçıvandan Sədərək, Şahbuz və Culfa istiqamətlərinə gedən, eləcə də Naxçıvan şəhərinin özündə, rayon mərkəzləri və kəndlərdə yollar müasir səviyyədə təmir olunaraq yenidən qurulub. Bu gün də bölgədə avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Hazırda respublikanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı mühüm layihələr uğurla icra olunur.

Son səfəri zamanı Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında ictimaiyyətin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev muxtar respublikada görülən işlərin çox yüksək qiymətə layiq olduğunu bildirib: ***“Bu yaxınlarda ulu öndərin 95 illiyinə həsr edilmiş təntənəli mərasimdə çıxış edərkən o cümlədən onun Naxçıvan dövrü haqqında söz açmışdım. Bildirmişdim ki, Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır. Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin”.***

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksinin, Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 nömrəli tam orta məktəbin binasının açılışlarında iştirak edib. Bütün bunlar bir daha Naxçıvanda infrastruktur layihələrin sürətlə həyata keçirilməsindən xəbər verir.

### *Naxçıvan Əlahiddə Ümumqoşun Ordu böyük qüvvəyə malikdir*

Səfər zamanı dövlət başçısı Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində və Əlahiddə Ümumqoşun Ordunun “N” hərbi hissəsində yaradılan şəraitlə də tanış oldu. Ümumiyyətlə, Naxçıvanda diqqəti çəkən məsələlərdən biri də Əlahiddə Ümumqoşun Ordunun son illərdə maddi-texniki bazasının əhəmiyyətli dərəcədə yüksəldilməsidir.

Qeyd edək ki, Naxçıvanın etibarlı müdafiəsinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvanda müdafiə və hərbi quruculuq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin düşmən əlinə keçməsinin qarşısını aldı, sabitliyin və əmin-amanlığın möhkəm əsası yarandı. 1993-cü ildən sonra ulu öndər Heydər Əliyevin başladığı yeni ordu quruculuğu muxtar respublikanın müdafiəsini daha da gücləndirdi. Bu gün isə dahi şəxsiyyətin Naxçıvana diqqət və qayğısı Prezident İlham Əliyev tərəfindən əzmlə davam etdirilir. Bu diqqət və qayğı digər sahələrin inkişafı ilə yanaşı, Naxçıvandakı hərbi birləşmələrin döyüş qabiliyyətinin daha da artırılmasında özünü göstərir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər: ***“Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın, demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir”.***

Azərbaycanın digər regionlarında olduğu kimi, Naxçıvanda da həyatın bütün sahələrindəki irəliləyişlər davamlıdır. Prezident İlham Əliyevin Naxçıvana bu günlərdə etdiyi səfər bunu bir daha təsdiq etdi. Dövlət başçısının açılışında iştirak etdiyi infrastruktur obyektləri göstərdi ki, qədim Azərbaycan yurdu olan Naxçıvan Muxtar Respublikası blokada vəziyyətində olmasına baxmayaraq, sürətli inkişaf və yüksəliş yolundadır.

**Rəşad CƏFƏRLİ**
***“Azərbaycan” qəzeti***
***22 may 2018-ci il***

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı və Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Təşkilat sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, bu il müsəlman Şərqində ilk demokratik və parlamentli respublikanın yaranmasının 100-cü ildönümünün qeyd olunması dövlətçilik tariximizə verilən yüksək dəyərin göstəricisidir.

Qeyd olunub ki, Xalq Cümhuriyyəti dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları – XX əsrin əvvəllərində Azərbaycan xalqının milli və mənəvi, mədəni yüksəlişi mərhələsinin və həmin dövrdə gedən proseslərin məntiqi nəticəsi kimi yaranıb. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırıb.



Vurğulanıb ki, XX yüzillikdə artıq ikinci dəfə müstəqillik qazandıq. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gedən ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirdi, milli dövlətçilik quruculuğu siyasətini uğurla həyata keçirdi.

Tədbirdə Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlı Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkəmizdə aparılan təhsil islahatları haqqında danışıb.

Sonra məktəblilərin ifasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim edilib, “Əbədi ezamiyyət” sənədli filminə baxılıb.

**Xəbərlər şöbəsi**



*Azərbaycan Xalq Cümhuriyyəti – 100*

# Müstəqilliyi qorumaq onu qazanmaqdan daha çətindir

### *Cümhuriyyətimiz – qürur mənbəyimiz*

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə 28 may 1918-ci ildə bütün türk-müsəlman dünyasının ilk müstəqil demokratik respublikası yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin çoxəsrlik ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi idi. Azərbaycan xalqının müstəqillik əzmini nümayiş etdirən Azərbaycan Xalq Cümhuriyyəti öz varlığı ilə XX əsr dünya siyasi arenasına səs saldı. Ümummilli liderimiz Heydər Əliyev cümhuriyyət tarixini "İstiqlaliyyətimizin sübhü" adlandırırdı. Artıq bizləri o sübhdən 100 illik bir zaman fasiləsi ayırır. Ötən 100 ildə o istiqlalın canımıza, qanımıza hopan şirinliyi bizi mübarizəyə səsləyib, xalqımıza yenidən müstəqillik bəxş edib.

***"Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq",*** – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu böyük tarixi hadisəni qeyd etmək üçün "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli Sərəncam imzalayıb. Həmçinin 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 25 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"na əsasən bu yubiley diyarımızda da silsilə tədbirlərlə qeyd olunur.

### *İstiqlal Bəyannaməsi bir millətin çoxəsrlik müstəqillik mübarizəsinin təsdiqi idi*

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən tarixi iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Bu tarixi sənəd türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılmasından xəbər verirdi. Həmçinin bu Bəyannamə tək bir müstəqil respublikanın yaradılması haqqında sənəd deyil, həmçinin tarixi yüzilliklərə söykənən, bu yüzilliklər ərzində dünyada dövlət quruculuğu tarixinə 40-dan çox dövlət verən bir xalqın mübarizliyinin, azadlıq duyğularının, qədim mədəniyyətinin, humanistliyinin, multikulturallığının təcəssümü idi. Bu Bəyannaməni qəbul edən dövlət özündən əvvəlkilərdən zaman, məkan, şərait, milli və müstəqillik, həm də demokratik baxımdan fərqlənən Azərbaycan Xalq Cümhuriyyəti idi. Bu dövlət mahiyyət etibarilə milli, demokratik bir dövlət olmaqla Şərq aləmində ilk avropatipli, sivil qanunlarla idarə olunan bir dövlət idi. Siyasi quruluşu dövrün tələblərinə cavab verdiyindən təqib və təzyiqlərə baxmayaraq, o, tezliklə aparıcı dünya dövlətləri tərəfindən tanınmışdı.

### *Müstəqilliyimizin məhvinə uzanan əllər olmasaydı...*

Tarixdə həmişə mübariz və qəhrəman xalqlar yaşayırlar. Həmin xalqlar isə tarix yaradır və onun səhifələrinə şərəf salnaməsi yazırlar. Belə qəhrəman xalqlardan biri də Azərbaycan xalqıdır. Azərbaycan Xalq Cümhuriyyəti bu xalqın yaratdığı tarix, onun 23 aylıq gərgin, çətin bir şəraitində fəaliyyəti isə həmin tarixin şərəf səhifələridir. O dövrün çətinlikləri – kənardan uzanan əllər, müdaxilələr, təxribatlar, təzyiqlər olmasaydı, bu il təkcə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının deyil, 1918-ci ildə qazandığımız müstəqilliyimizin də 100 illiyini qeyd edə bilərdik.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan çətinlikləri təhlil edən ümummilli lider Heydər Əliyev deyirdi: ***"Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz normal fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək, Azərbaycanda istilaçılıq hərəkətlərinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr azərbaycanlı olmamışlar. Eyni zamanda, Cümhuriyyətin hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr onun süqut etməsinə gətirib çıxarmışdır".***

Tarixçi alimlər qeyd edirlər ki, XX əsrin əvvəllərində, dəqiq desək, cümhuriyyətin qurulmasından başlayaraq onun süqutunadək erməni silahlı birləşmələri Qarabağda, Naxçıvanda, Zəngəzurda dayanmadan Azərbaycan kəndlərini təhdid edirdilər. Qarabağda hər an üsyanlar qaldırırdılar. Yeri gəlmişkən qeyd edək ki, 1919-cu ilin fevral ayında Qarabağ General-Qubernatorluğu da yaradılmışdı və Xosrov Paşa bəy Sultanov Qarabağ general-qubernatoru təyin olunmuşdu. O, Qarabağda ermənilərin avantürist planlarının qarşısının alınmasında çox mühüm işlər gördü. Lakin erməni və rus təxribatçılarının nəyin bahasına olursa-olsun, cümhuriyyətin məhv edilməsi haqqındakı planları qarşısında bu müstəqillik davam edə bilmədi və cəmi 23 ay yaşayan türk-müsəlman dünyasının ilk demokratik respublikası düşmən qüvvələrin təsiri ilə 1920-ci ilin 27 aprelində iflasa uğradı. Xalq yenidən 70 il müstəmləkə rejimində yaşamaq məcburiyyətində qaldı. 70 ili də beləcə ötən XX əsr, ümumilikdə, tariximizin ən keşməkeşli səhifələrini təşkil edən bir yüzillik kimi tarixə yazıldı.

1991-ci ildə isə yenidən müstəqillik qazanmış respublikamızda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dalğalanmağa başladı.

### *İkinci dəfə əldə etdiyimiz müstəqillik ümummilli lider Heydər Əliyevin sayəsində əbədilik qazandı*

Dahi siyasətçi Heydər Əliyevin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə müstəqil dövlətimizin təməli möhkəmləndirildi, müstəqilliyimiz əbədilik qazandı. Ulu öndərin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ümummilli liderimiz tərəfindən milli dövlət strukturlarının yaradılması gündəmə gətirildi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə muxtar respublikanın Dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq bayrağın Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Azərbaycanın yeni Dövlət gerbinin hazırlanması və təsdiqi məsələsinə də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində baxıldı. Üçrəngli milli bayrağın bərpası və qəbulu ilə yanaşı, Dövlət gerbi və Dövlət himninin qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alındı. Bu məsələləri kompleks halda həll etmək üçün Azərbaycan Respublikasının Ali Sovetinə müraciət olundu.

Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözlərinin çıxarılması və digər tarixi qərarlar da müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.

Ümummilli lider Heydər Əliyevin ***"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!"*** fikri indi dünya dövlətləri sırasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında bir daha öz təsdiqini tapır.

Bu gün də müstəqil Azərbaycanımız etibarlı əllərdədir. Azərbaycan xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır.

### *Həqiqətən də, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən dəfələrlə çətin imiş*

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonra yaranan vəziyyətlə tanış olduqda, ona uzanan əlləri, gözügötürməyənlərin təxribatlarını gördükdə isə belə bir qənaətə gəlirsən ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Hər birimizə məlumdur, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, ümummilli liderimiz Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi. Məhz ulu öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi.

Artıq 27 ildir ki, müstəqilik. Ötən bu dövrdə ölkəmizdə 100 ilə bərabər işlər görülüb. Hələ görüləcək də. Gün o gün olacaq ki, inkişafında hər zaman ulu öndərin ideyalarına istinad edilən respublikamızın dayanıqlı müstəqilliyin verdiyi imkanlar nəticəsində gözügötürməyənlər tərəfindən işğal olunan torpaqlarımız geri alınacaq. Müstəqilliyimizin yaşı artdıqca ölkəmizin inkişafı daha da sürətlənəcək. Və gün o gün olacaq ki, müstəqilliyimizin 50, 100 illik yubileylərini qeyd edəcəyik.

**✍ Mətanət MƏMMƏDOVA**

## "1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü" münasibətilə tədbir keçirilib



"1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü" münasibətilə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən silsilə tədbirlər keçirilir.

Bu münasibətlə Şərur Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Şərur rayon "Bahar" kinoteatrında tədbir keçirilib.

Tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov muxtar respublikada "1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü"nün yüksək səviyyədə keçirilməsinin uşaqlara göstərilən diqqət və qayğının əyani ifadəsi olduğunu vurğulayaraq bildirib ki, respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da uşaqların inkişafı, onların cəmiyyətin layiqli üzvü kimi yetişməsi diqqətdə saxlanılır. İstedadlı şagirdlərin üzə çıxarılması üçün müxtəlif tədbirlər, bilik və yaradıcılıq müsabiqələri, sərgilər, idman yarışları keçirilir.

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında bildirib ki, hazırda muxtar respublika əhalisinin 35,7 faizini uşaqlar təşkil edir. Naxçıvanda istifadəyə verilən müasir təhsil ocaqları təhsilin keyfiyyətinin yüksəldilməsinə, uşaqların yüksək səviyyədə təhsil almasına şərait yaradıb. Uşaqların təhsili ilə yanaşı, onların sağlamlığının qorunması, fiziki inkişaflarının təmin olunması məqsədilə son illər muxtar respublikada müasir standartlara uyğun idman obyektləri tikilib istifadəyə verilib. Komitə sədri eyni zamanda muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsili və reabilitasiyası, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, aztəminatlı ailələrdən olan uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün görülən işləri də qeyd edib.

Sonra 2017-2018-ci tədris ilində Şərur rayonunda təhsil, incəsənət, idman sahələri üzrə fərqlənən şagirdlərə fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

Tədbir konsert proqramı ilə davam edib.

***Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Magistrantların X regional elmi konfransı



Naxçıvan Dövlət Universitetində magistrantların X regional elmi konfransı keçirilib. Tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov gənc tədqiqatçıların elmi fəaliyyətlərinin stimullaşdırılması nəticəsində elmi-tədqiqat işlərinə marağın artdığını önə çəkib.

Universitetin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev dissertasiyaların yazılması üçün ilk olaraq elmi problemin qoyuluşu, işin aktuallığının mühüm əhəmiyyət kəsb etməsi haqqında danışıb.

Universitetin magistratura üzrə dekanı, biologiya üzrə elmlər doktoru Etibar Məmmədov bildirib ki, 1997-ci ildən 7 ixtisas üzrə 27 nəfərə magistr təhsili verməyə başlayan universitetdə hazırda I kursda 55 ixtisas üzrə 138, II kursda isə 35 ixtisas üzrə 103 magistr əyani təhsil alır. Bu günədək universitetdə1593 nəfər magistr dərəcəsi alıb.

Konfransda universitetin Dövlət hüququ ixtisası üzrə I kurs magistrantı Əziz Qasımovun "Vərəsəlik hüququ" mövzusunda çıxışı dinlənilib.

Təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisası üzrə II kurs magistrant Gülbani Əliyevaya "İlin magistrantı" diplomu təqdim edilib.

Konfrans bölmə iclasları ilə davam edib, qiymətləndirilən məqalə müəlliflərinə universitetin diplomları təqdim olunub.

**Səadət ƏLİYEVA**

# Beynəlxalq rəsm festivalı xoş təəssüratlarla yadda qalıb

***Xəbər verdiyimiz kimi, Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Naxçıvan – başəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalı keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun, Mədəniyyət Nazirliyinin və Rəssamlar Birliyi tərəfindən təşkil edilən beynəlxalq festival çərçivəsində rəssamlar qədim diyarın bir çox gəzməli-görməli yerləri, tarixi abidələri, mədəniyyət müəssisələri ilə tanış olublar. Festivalın sonuncu günü iştirakçılar Qarabağlar Türbə Kompleksi, “Cahan” AVM, Naxçıvan Biznes Mərkəzi ilə də tanış olub, Naxçıvan Dövlət Universitetində təşkil edilən rəsm sərgisinə baxıblar. Onlarla görüşüb həmsöhbət olduq, Naxçıvanla bağlı təəssüratlarını öyrəndik.***



***Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov:*** – Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası həm tarixi keçmişi, həm də mədəniyyəti ilə zəngin bir diyardır. Muxtar respublika ötən illər ərzində çox böyük inkişaf yolu keçib, yeni, gözəl memarlıq quruluşuna malik binalar tikilib, müasir yollar salınıb, müxtəlif muzeylər yaradılıb. Xüsusilə muxtar respublikada mədəniyyət sahəsində böyük işlər görülüb. Bu da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli mədəniyyətin inkişafına göstərdiyi böyük qayğıdır. Bu qayğının nəticəsidir ki, Naxçıvanda rəssamların fəaliyyəti üçün ən müasir şərait yaradılıb, onların əməyi daim yüksək səviyyədə qiymətləndirilir. “Naxçıvan – başəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının keçirilməsi də muxtar respublikada mədəniyyətə göstərilən diqqətin bir nümunəsidir. Bu festivalın muxtar respublika üçün böyük əhəmiyyəti var. Burada iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən rəssamlar gəlib. Naxçıvanın təbiəti, tarixi tikililəri onlar üçün tükənməz mövzu mənbəyidir. Bu da imkan verir ki, Naxçıvan beynəlxalq aləmdə daha çox tanınsın, təbliğ olunsun. Bir daha belə bir festivalın keçirilməsinə görə Ali Məclisin Sədrinə rəssamlarımız adından dərin minnətdarlığımı bildirirəm.

***Mehmet Sağ (Türkiyə):*** – Festivala dəvət olunduğumu eşidəndə çox sevindim, həyəcanlandım və duyğulandım. Axı bəşəriyyətin beşiyi sayılan Naxçıvana ilk dəfə gələcəkdim.



Digər bir tərəfdən, bütün Türk dünyasının unudulmaz liderlərindən olan dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlı bir beynəlxalq festivalda iştirak etməyin sevinc və məsuliyyətini yaşayırdım. Sərgi salonunda ulu öndərin anadan olmasının 95 illiyinə həsr edilmiş sərgiyə baxarkən dünya şöhrətli bu siyasi xadimin şəxsiyyətinin böyüklüyünü, sənət adamlarınızın timsalında, bütövlükdə, xalqınızın ona olan sevgisinin tükənməz olduğunu bir daha dərk etdim.

Şəhəriniz möhtəşəmdir. Bu torpağın qədim keçmişi, tarixi, mədəniyyəti var. Buranın sanki dağı-daşı, torpağı dil açıb danışır, bütün gözəllikləri bizə çatdırır. Araz çayı isə bütün tarixi səhifə-səhifə yenidən yaşadır. Məncə, Naxçıvanın inci kimi parlamasının səbəbi buranın insanlarının sadə, mədəni, başəri, estetik duyğulara malik olmasıdır. Bu diyarın havası, iqlimi, coğrafi şəraiti bizə imkan verir ki, təbiət gözəlliklərini, rəngli dünyanı rəssam fırçası ilə təsvir edək. Qədim tarixi abidələr, muzeylər bizi heyran etməklə yanaşı, həm də türk insanının öz tarixinə, mədəniyyətinə sahibçıxma örnəyini bizə göstərdi. Bu qədim diyarın gözəlliklərini Haçadağ və Nuh tufanı ilə bağlı qədim əfsanədən yararlanaraq kətana köçürdüm. Bu əfsanəyə bizim Anadolu coğrafiyasında və Ağrıdağ ilə bağlı kitablarda da rast gəlinir. Məndə çox böyük təəssürat yaradan Dünya tufanı hadisəsini qəlbimdə əfsanəvi güc hiss etməklə rəsmdə simvolik olaraq canlandırmağa çalışdım.

Əfsanələr diyarı Naxçıvan… Düşünürəm ki, hər birimiz bütün bu gördüklərimizi – ürəyi həmişə müstəqillik, azadlıq atəşi ilə dolu olan türklərin tarixini, mədəniyyətini hər bir şair və yazıçı qələmi, rəssam fırçası, bəstəkar bəstəsi, heykəltəraş tişəsi ilə ifadə etməli, gələcək nəsillərə qiymətli və zəngin ərməğan kimi ötürməliyik.

***Həbibə Javanbaht (İran):*** – Təbriz şəhərindən gəlmişəm.



Naxçıvan və naxçıvanlılar haqqında kifayət qədər məlumatlıyam. Qədim diyarınız günü-gündən inkişaf edir. Bunu Naxçıvana hər gəlişimizdə əyani olaraq görürük. Muxtar respublikaya dəfələrlə gəlib-getməyimə baxmayaraq, burada keçirilən beynəlxalq rəsm festivalında ilk dəfədir, iştirak edirəm. Naxçıvanın gözəlliklərini rəssam fırçası ilə ifadə etmək mənim üçün çox xoşdur. Bura Nuhun yurdudur və tarixi abidələrlə zəngindir.

Naxçıvanın hansı səmtinə üz tutsan, orada təmizliyin qorunub saxlanıldığını görərsən. Sizin şəhəriniz bu xüsusiyyətinə görə bir sıra dünya ölkələrinə nümunədir. İnsanların istiqanlılığı, qonaqpərvərliyi isə hamını razı salır. Çəkdiyim rəsmdə də çalışmışam ki, tarixiliyi, qədimliyi saxlamaqla, Naxçıvanı bütün çalarları ilə təsvir edim.

Şəhərinizdə belə festivalların keçirilməsi isə biz rəssamlara göstərilən yüksək diqqət və ehtiramın ifadəsidir. Dünyanın hər yerində belə festivallar keçirilsə, düşünürəm ki, bütün ölkələr arasında sülh və əmin-amanlıq yaranar, möhkəm dostluq əlaqələri formalaşar, eyni zamanda sənətimizlə bağlı yeni məlumatlar əldə edərik. Belə yüksək təşkilatçılığa görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

***Olga Eren (Qazaxıstan):*** – Naxçıvanda təşkil edilən beynəlxalq rəsm festivalı bizdə qədim diyarınızın zəngin tarixi və bu günü ilə səsləşən gözəl mədəniyyət və sənət bayramı təəssüratı oyatdı.



Şəhərinizdə çox olmuşam. Artıq üçüncü dəfədir ki, bu festivalda iştirak edirəm. İnsanların öz tarixinə, milli dəyərlərinə böyük sevgi ilə sahib çıxması, onu təbliğ etməsi, tanıtdırması, gəzdiyimiz yerlər mənim bu şəhərə heyranlığımı daha da artırdı. Məsələn, biz Şərq memarlığı incilərini özündə əks etdirən Qarabağlar Türbə Kompleksi ilə tanış olduq. Bərpası artıq tamamlanmaqda olan həmin kompleks tarixi abidələrə göstərilən qayğının, dövlətinizin tarixi keçmişinizə verdiyi önəmin ifadəsidir. Naxçıvan həm də bu gün mədəniyyəti, müasirliyi və sürətli inkişafı ilə bizi özünə valeh etdi.

Belə beynəlxalq rəsm festivallarının Naxçıvanda keçirilməsi heç də təsadüfi deyil. Çünki Nuhun vətəni sayılan qədim diyar həm də rəssamlıq mədəniyyətinin formalaşdığı tarixi-mədəni mərkəzlərdəndir. Bura böyük azərbaycanlı rəssam Bəhruz Kəngərlinin vətənidir. Naxçıvanın ayaq basılan hər bir yeri bir şairə necə şeir yazdırırsa, rəssama da “gəl məni çək”, – deyir sanki. Bizim də borcumuz gördüklərimizi ağ kağız parçasına köçürmək, onları sehrli fırçaların, rənglərin dili ilə bütün dünyaya çatdırmaqdır. Naxçıvanın simvolu olan Haçadağ, Möminə xatın türbəsi və digər tarixi abidələri rəssam təxəyyülünə məxsus çalarlarla işləmək insana mənəvi zövq verir, tarixi göz önündə təkrar-təkrar canlandırır. Naxçıvanın belə beynəlxalq



sərgilərə ev sahibliyi etməsi Azərbaycan boyakarlıq sənətinin inkişafını, təsviri sənətin səviyyəsini, yaradıcılıq axtarışlarının istiqamətlərinin yüksək səviyyədə olduğunu bir daha göstərir.

***Diana Arslanova (Rusiya):*** – Naxçıvanda müasir infrastrukturun yaradılması, geniş park və xiyabanların salınması, ilk baxışda diqqəti cəlb edən gülkarlıqlar buranı əsl cənnətməkana çevirib. Gəzdiyimiz yerlər xatirəmdə silinməz izlər buraxdı, yaddaqalan günlər yaşadım.



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və rəssamların emalatxanaları ilə tanışlıq bir daha göstərdi ki, burada rəssamların fəaliyyəti üçün geniş imkanlar yaradılıb. Məlum oldu ki, burada müasir rəssamlıq emalatxanalarının istifadəyə verilməsinə, bu sahədə istedada malik olanların üzə çıxarılmasına böyük diqqət və qayğı göstərilir. Festivalda tanış olduğum naxçıvanlı gənc rəssamlar bu diyarın rəssamlıq məktəbinin zəngin ənənələrindən ağızdolusu danışdılar.

Tanrının yurdunuza bəxş etdiyi təbiət gözəlliklərini, xalqınızın qədim tarixi keçmişini yaşadan abidələri təxəyyülümün gücü, fərqli janr və üslub rəngarəngliyi ilə çəkdim. Bizə bu imkanı yaradanlara minnətdarlığımı bildirirəm.

***Patimat Quseynova (Rusiya):*** – Bu, mənim Naxçıvana ilk gəlişimdir. Diyarınızda ən çox diqqətimi çəkən Möminə xatın türbəsi oldu. Həqiqətən də, bu abidəyə tamaşa etdikcə heyranlığımı gizlədə bilmirsən. Abidə ilə tanışlıq zamanı öyrəndim ki, Azərbaycan milli memarlığının möhtəşəm nümunəsi, Şərq memarlığı incilərindən olan bu türbə, bütövlükdə, Türk dünyasında anaya, qadına yüksək sevgi və ehtiramın rəmzi kimi məhz Naxçıvan torpağında ucalır. Çəkdiyim rəsm əsərində də bunları təsvir etməyə çalışmışam. Eyni zamanda müxtəlif rəng çalarlarından istifadə etməklə yaratdığım rəsmdə Haçadağı, qədim Nuh əfsanəsi ilə bağlı eşitdiklərimi kətan üzərinə köçürmüşəm.



Böyük fərəh hissi ilə deyərdim ki, Naxçıvan əsl gəzməli-görməli, yaşamalı yerdir. Gələcəkdə yolumu tez-tez Naxçıvandan salacağam.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

---

*Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilib.*

## Növbəti seminar-müşavirə olub



Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Zaur Əliyev, Natiq Həsənov və sektor müdiri Əsgər Əhmədov çıxış ediblər. Bildirilib ki, muxtar respublikada digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılıb. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmalarının müasir tələblərə uyğun yerinə yetirilməsinə əlverişli şərait yaradıb.

Qeyd edilib ki, bu ilin ötən dövrü ərzində şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafikləri daha da təkmilləşdirilib. Xətlərə çıxan avtobus və taksilərə texniki baxışlar təşkil olunub. Müəyyən edilən nasazlıqlar aradan qaldırılıb, avtobus sürücülərinə lazımi köməkliklər göstərilib.

Vurğulanıb ki, taksi sürücüləri ilə mütəmadi olaraq maarifləndirmə işləri aparılır, onların geyim formasına, istifadə etdikləri avtomobillərin təmizliyinə, sərnişinlərlə rəftarına, tarif qiymətlərinə əməl etmələrinə, məxsus olduqları zona hüdudlarındakı fəaliyyətlərinə ciddi nəzarət olunur. Taksi sürücüləri muxtar respublikanın turizm mərkəzlərini, muzeylərini, tarixi-mədəni abidələrini özündə əks etdirən turist xəritələri, müxtəlif bukletlərlə təmin edilib, mütəmadi olaraq muzeylərdə sürücülərin iştirakı ilə məlumatlandırma tədbirləri həyata keçirilir.

✍ **Nail ƏSGƏROV**

---

## Futbol üzrə muxtar respublika çempionatına yekun vurulub

***Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq futbol üzrə XVI muxtar respublika çempionatına yekun vurulub.***

9 komandanın mübarizə apardığı çempionat iki dövrədən ibarət olmaqla keçirilib. İlk dövrə noyabr ayında başa çatıb. İkinci dövrənin oyunları isə fevral ayının 27-də başlayıb və may ayında yekunlaşıb. Hər turda bir komanda istirahət edib.

Mövsümün ilk turlarından etibarən liderliyi ələ alan “Araz-Naxçıvan” çempionatı məğlubiyyətsiz başa vuraraq ardıcıl 4-cü dəfə çempionluğu bayram edib. Eyni zamanda “qırmızı-ağlar” mövsüm ərzində qapılarından ən az qol buraxan komandadır. Çempionatın ilk dövrəsində elə də uğurlu nəticələr əldə edə bilməyən Naxçıvan Dövlət Universitetinin komandası ikinci dövrədə ardıcıl qələbələr qazanmaqla mövsümü ikinci pillədə başa vurub. Onlar ikincilik uğrunda mübarizədə daha çox “Əlincə” komandası ilə mübarizə aparmalı olub. Culfa təmsilçisi isə cari mövsümdə uğurlu nəticələri ilə yadda qalıb. Xüsusilə səfər oyunlarında qazandıqları qələbələr onları üçüncülüyə yüksəldib.

Cari mövsümdə uğurlu komandanın “Dübəndi” olduğunu desək, yəqin ki, yanılmarıq. Belə ki, öncəki mövsümlərdə, adətən, turnir cədvəlinin alt pillələrində qərarlaşan Ordubad klubu, geridə qoyduğumuz mövsümü dördüncü pillədə başa vurub. Mövsümün ən uğursuz klubları isə “Arpaçay” və “Batabat”dır. Ötən mövsüm turnir cədvəlinin üst pillələrində qərarlaşan bu komandalar cari ildə çempionatı autsayder kimi başa vurublar.

Geridə qoyduğumuz mövsümdə hakimlər qayda pozuntularına görə 166 dəfə əllərini ciblərinə aparıblar. Göstərilən vərəqələrdən 152-si sarı, 14-ü qırmızı vərəqə olub. Sarı vərəqələrin sayına görə isə turnir cədvəlinə “Babək” komandası “liderlik” edir. Çempionatın ən az vərəqə alan, “feyr-pley” qaydasına ən çox riayət edən komanda isə “Arpaçay”dır.

Mövsümün ən məhsuldar futbolçusu isə NDU-nun hücumçusu Samir Kərimovdur. O, rəqib qapılarından 24 top keçirib. “Araz-Naxçıvan” komandasının futbolçuları Turqay İbrahimov və Tağı Seyidov müvafiq olaraq 17 və 9 qol vurublar.

***Naxçıvan Muxtar Respublika çempionatı***
***16-cı turun oyunları***

*“Babək” (Babək)- NDU – 1:0*

*“Kəngərli” (Kəngərli)-“Əlincə” (Culfa) – 3:1*

*“Dübəndi” (Ordubad)-“Sədərək” (Sədərək) – 3:0*

*“Arpaçay” (Şərur)-“Batabat” (Şahbuz) – 2:1*

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 16 | 16 | 0 | 0 | 68-5 | 48 |
| 2. | NDU | 16 | 11 | 1 | 4 | 50-30 | 34 |
| 3. | Əlincə | 16 | 8 | 3 | 5 | 36-29 | 27 |
| 4. | Dübəndi | 16 | 6 | 2 | 8 | 29-36 | 20 |
| 5. | Kəngərli | 16 | 6 | 1 | 9 | 36-44 | 19 |
| 6. | Sədərək | 16 | 6 | 1 | 9 | 34-45 | 19 |
| 7. | Babək | 16 | 5 | 2 | 9 | 26-36 | 17 |
| 8. | Arpaçay | 16 | 5 | 2 | 9 | 38-45 | 17 |
| 9. | Batabat | 16 | 3 | 0 | 13 | 25-59 | 9 |

**Qeyd:** “S” – sıra, “O” – oyun, “Q” – qələbə, “H” – heç-heçə, “M” – məğlubiyyət, “T/F” – top fərqi, “X” – xal.

✍ **Ceyhun MƏMMƏDOV**

---

***İtmişdir***

Qənbərova Şərəbanı Quşdan qızının adına olan 0011727 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

---

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 384**